**Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu, 12-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250 (Cild I); Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1080-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 316-cı maddə üzrə:

1.1.1. birinci cümlədə "kreditor mülkiyyətçiyə çevrilir" sözləri "ipotekaya xitam verilir" sözləri ilə əvəz edilsin;

1.1.2. ikinci cümləyə "daşınmaz" sözündən əvvəl "ipotekaya xitam vermə" sözləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 472.4-cü maddə əlavə edilsin:

"472.4. Zaminlik müqaviləsi ilə təmin edilmiş öhdəlik üzrə zaminin subsidiar məsuliyyəti nəzərdə tutulduğu halda, zaminin məsuliyyəti borclunun öldüyü gündən mirasın qəbul edildiyi günədək müddətdə dayandırılır.".

**Maddə 2.** "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 461 (Cild I) aşağıdakı məzmunda 48.1.2-1-ci maddə əlavə edilsin:

"48.1.2-1. ipoteka saxlayan tələbdən və ya ipotekadan imtina etdikdə;".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 19 aprel 2024-cü il
№ 1136-VIQD